# ÖMRÜN AĞIRLIĞI ÇÖKMÜŞ VƏRƏQLƏR



*Rafael HÜSEYNOV*
*Akademik*

*(Əvvəli ötən sayımızda)*

Danışırdı ki, 1938-ci ildə mən hələ məktəbli ikən Bakıda həbs olunanda sinif yoldaşlarımdan bir neçəsi anama baş çəkibmiş, deyiblərmiş ki, Balaşdan ötrü çox darıxırıq. Sinfimizdə onun oturduğu yeri boş saxlamışıq. Balaş qayıdıb gələnəcən o yerdə heç kim oturmayacaq.

Artıq ağsaqqal əyyamlarında, ömrün bitəcəyində həmin söhbəti Balaş Azəroğlu bir də yada salırdı. Deyirdi, mən təzədən Bakıya qayıdanacan, yenidən o məktəbi görənəcən illər keçdi, o uşaqlar neçəsi məktəbi də qurtardı, sonra ali məktəbləri də başa vurdular; illər ötəndən sonra, təbii ki, keçmiş sinif yoldaşlarımın bir müddət skamyada boş saxladığı yerimdə başqaları oturdu.

Balaş müəllim bir az da qəhərlənərək əlavə edirdi ki, mən naşükür adam deyiləm, ömrümdən razıyam, çox mətləblərə, çox mərtəbələrə yetişdim, ancaq həyat məndən otura biləcəyim çox yerləri də aldı...

...Artıq dünya dəyişirdi, 1930-cu illər bitir, 1940-cı illər başlanırdı və gənc Balaş da dəyişən dünyaya hazır olmaq üçün bəlli bir mərhələni artıq keçmişdi: 1939-41-ci illərdə ikiillik mədrəsəni bitirmişdi, farscanı mükəmməl öyrənmişdi. Amma, eyni zamanda, fəal bir gənc kimi ətrafda cərəyan edən ictimai-siyasi hadisələr haqqında düşüncələrə dalırdı.

Dünya müharibəsi gedirdi. Savaş dərinləşdikcə müttəfiq qoşunları da - sovet hissələri, amerikanlar, ingilislər İrana girmişdilər, ölkə ayrı bir hava ilə nəfəs almaqda idi. Rza şah da İrandan çıxıb getmişdi. İnsanlar hansı təbəqələrdən olmalarına rəğmən xeyli həssaslaşmışdılar.

Ərdəbilin mərkəzində "Çaharrah" (dörd yol ayrıcı) deyilən yerdə bir məşhur çayxana varmış. O çayxanada da bir radio. Elə çağlarmış ki, radio bahalı əyləncə imiş, hələ hər evdə yoxmuş. Ona görə də günortadan sonra, axşamüstü radiodan lər yayımlanan saatlarda bir çox adamlar bu çayxanaya can atarmış. Gələrlərmiş ki, orada Berlin, Ankara radiosundan verilən müharibə xəbərlərini dinləsinlər, döyüşlərin gedişi haqda, ümumi vəziyyət barədə yenilikləri öyrənsinlər.

Balaş müəllim bir az məzə ilə yada salırdı ki, Ərdəbil şəhərində başqa yerdə də çayxanalar vardı, orada da çayı içmək üçün bir pul ödəməli idin, ancaq Çaharrahdakı çayxanada həmin radioya görə çayın qiyməti bir neçə dəfə baha idi. Bəziləri guya az xərcə düşmək üçün gəlir, bir stəkan çay götürürdü, iki-üç qurtum içib dayanırdı ki, guya soyumasını gözləyir. Ancaq çayçılar bu kələkbazlardan da fəndgirmiş. Müştəri vaxt uzatmaqçün iki-üç qurtumdan sonra stəkanı qırağa qoyan kimi çaypaylayan uşaq tezcə yaxınlaşarmış masaya, görünür, bu da müşahidəcil çayxana sahibinin göstərişi imiş ki, gördünüz stəkan yarıboşdur, durmayın, dərhal götürüb təzəsini gətirin. Müştəri gözünü açıbyumunca görürmüş stəkan getdi, ağzını açan kimi də çayçı şirin dilini salırmış işə ki, ağa, çayınız buza dönmüşdü, qaynarını gətirim, nuş edin.

Beləcə, xəbərlərə qulaq asmaq üçün gələnlər əslində radionu dinləmək pulunu da ödəmiş olur, çayxanaya girib-çıxanacan xeyli xərcə düşürlərmiş. Ancaq şübhə yox, bu çayxanaya yığışanlar yalnız radiodakı xəbərləri dinləmirdilər, bir yerdəydilərsə, öz aralarında olub-keçənlərin müzakirələrini də aparırdılar, ölkədə cərəyan edənlərin də haqqında mülahizələrini bölüşürdülər.

Həmin axşamlardan birində Balaş eşidir ki, "hizb" yaranıb.

Deyirdi ki, ogünəcən "hizb" sözünü eşitmişdim, nə demək olduğunu bilmirdim. Başa saldılar ki, bu, bir təşkilatdır, ölkənin nicatı haqqında düşünən insanların birləşdiyi yerdir, mərkəzi qərargahı da Tehrandadır.

Balaş da, tay-tuşları da hizblə maraqlanmağa, orayla necə əlaqə yaratmaq haqqında düşünməyə başlayırlar. O vaxtlar Balaş başında Bakı havası olan, oradaykən tez-tez dərnəklərə gedən gənc kimi xeyli fəal imiş, elə onun kimi Bakıdan sürgün olunmuş yaşıdı Feyzi ilə birlikdə teatr dəstəsi qurublarmış, ora səhnəyə həvəs göstərən uşaqları da cəlb ediblərmiş, "Şeyx Sənan"ı, "O olmasın, bu olsun"u, digər dəbdə olan əsərləri göstərirlərmiş.

Balaş müəllim yada salırdı ki, 1941-ci ildə yaratdığımız o dəstəyə tədricən yeni gənclər qoşuldu.

Hətta Balaş da, Feyzi də aralanandan sonra gənclərin həvəskar teatr dəstəsi işini ta 1945-ci ilə qədər davam etdirir, bu 5 ilin ərzində sonradan Güney boyu tanınıb şöhrətlənəcək bir neçə aktyor məhz orada yetişir.

Həyatında və yaddaşında silinməz izlər buraxmış həmin Çaharrahdakı çayxanada 1940-cı illərin lap əvvəllərində Balaş bir xəbər də eşitmişdi ki, Təbrizdə "Vətən yolunda" adlı qəzet çıxır.

Haşimi adlı bir xeyirxahı Balaşa məsləhət görür ki, sən də şeirlərini göndər ora, əlimə həmin qəzetin bəzi nömrələri düşüb, oxumuşam, şeirləri gen-bol verirlər, aralarında tanınan şairlər də olur, az tanınanlar da, lap heç tanınmayanlar da. Ancaq sənin şeirlərini oxuyuram, görürəm ki, orada dərc edilən şeirlərin çoxundan yaxşıdır ki, pis deyil, məsləhətimdir sən də şeirlərini göndərəsən, məncə, çap edərlər.

Balaş hə-yox deməsə də, söz ağlına batır. Çox çək-çevir etmədən dostlara oxuyub tərif eşitdiyi şeirlərindən birini zərfə qoyub "Vətən yolunda" qəzetinin redaksiyasına yollayır.

Üstündən bir neçə gün keçəndən sonra yenə həmin çayxanada toplaşıblarmış, yenə xəbərləri gözləyirlərmiş, kimsə cibindən "Vətən yolunda"nın təzə nömrəsini çıxarır, qəzet əl-əl gəzir, məqalələri oxuyanlardan biri içini çəkir ki, "Bıy, burda Ərdəbilin də adı var!". Hamı başlayır maraqlanmağa, rica edirlər ki, o yeri ucadan oxuyun, görək Ərdəbil haqqında nə yazılıb.

Qəzetin həmin buraxılışında redaksiyaya göndərilən şeirlərin xülasəsi verilibmiş və yazılmışdı ki, bizə indiyə qədər Təbrizdən, Səlmasdan, digər şəhərlərdən şeir göndərənlər olub, çoxusunu da dərc etmişik, lakin indiyədək Ərdəbildən şeirli məktub almamışdıq, təəccüblənirdik ki, bu necə ola bilər Xətainin şəhərindən, Xətainin yurdundan bir şair çıxmasın; indi Ərdəbildən də şeirli məktub almışıq, "Azəri" təxəllüslü bir şair şeirini göndərib, gələn sayımızda onu da verəcəyik.

Balaşın dostu Haşimi qəzeti alıb baxır, indicə eşitdiyi həmin məlumatı bir də oxuyur. Balaş sarı əyilib astadan pıçıldayır ki, sənə söz dedim, qulaq asmadın, şeirlərini vaxtında göndərmədin, bu "Azəri" təxəllüslü kimdirsə, düşdü qabağa, yoxsa sən "Vətən yolunda"da şeiri çıxan birinci ərdəbilli olacaqdın.



Balaş bir söz demir, amma o da fikirləşir ki, görəsən, bu "Azəri" kimdir.

Belə fikirləşməyini Balaş müəllim mənə artıq 1990-cı illərin ortalarında söyləyirdi. Deyirdi ki, mən "Vətən yolunda" qəzetinə göndərdiyim şeirin altında imzamı "Azəroğlu" yazmışdım, növbəti sayda dərc ediləcək şeirin müəllifi "Azəri" kimi elan edildiyindən mən də bunun başqa adam olduğunu zənn etdim.

Çayxana hər gün adamlı idi, radio hər gün səslənirdi və "Vətən yolunda" qəzetinin də hər təzə buraxılışından azı bir-iki nüsxə bura gələnlərdə olurdu ki, hamının oxuması üçün elə bircəsi də bəs edirdi.

*(Davamı 5-ci səhifədə)*

*(Əvvəli 4-cü səhifədə)*

Yenə axşam xəbərləri səslənib bitincə başlayırlar qızğın müzakirələrə, ara sakitləşəndə bir nəfər "Vətən yolunda"nın son nömrəsini açıb deyir ki, gözünüz aydın, ərdəbilli şairin də mənzuməsi burada çap olunub. Qəzet əl-əl dolanaraq gəlib Haşimiyə çatır. Gözü ilk sətirlərə sataşınca az qala qışqırır: "Bu ki bizim Balaşın şeiridir. Azəroğlu elə Balaşdır, a camaat! Bu şeiri neçə ay qabaq öz dilindən eşitmişəm!"

Və başlayır şeiri əvvəldən-axıracan ucadan oxumağa.

...Onda üzbəüz idik, Balaş müəllim danışırdı, mən dinləyirdim, diktofon yazırdı. Mən yenə dinləyirəm, diktofon yenə işləyir, ancaq Balaş müəllim yoxdur, səsi var: "O vaxt müttəfiqlər - sovetlər şimaldan, o biri müttəfiqlərsə cənubdan İrana daxil oldular. Beləliklə, İran quruluşu sarsıldı, Rza şah qaçdı. Şahlıq dağılandan sonra Cənubi Azərbaycanda azadlıq hərəkatı başladı. Tehranda İran Xalq Partiyası yarandı. Onun Ərdəbildə, Təbrizdə şöbələri vardı. Mən də Ərdəbildəki şöbəyə daxil oldum, başladım orada fəaliyyət göstərməyə".

Mən əyilib hakimin əllərindən öpmədim,
Şeirimi çiçək kimi ayaqlara səpmədim.
Nə aciz bir bəndəyəm, nə satılmış bir qulam,
Nə saray məddahıyam, dərgahlardan qovulam.

Mən ellərin oğluyam, ellər böyütmüş məni,
Şeirim eldən alıbdır bu ilhamı, qüvvəni.
Mən nə şam, nə pərvanə, nə rübab şairiyəm.
Azadlığın carçısı, inqilab şairiyəm.

qalələr dərc edirdik. O vərəqələri kəndlərdə əl-əl gəzdirirb oxuyurdular, ərbablara acıq verirdilər ki, bax sizi belə ifşa ediblər".

...Şər həmişə lap başlanğıcdan məğlubdur. Çünki şər yaranınca ona qarşı mübarizə aparacaq qüvvələr də öz-özünə törəyir. Əslində hər şər daha mütərəqqi qüvvələrin ortaya çıxması üçün bir təmələ çevrilir.

1940-cı illərin əvvəlləri dünyanı səksəkədə saxlayan böyük təhlükə addım-addım irəliləyir, Avropanın başı üzərindəki faşizm kabusu getdikcə qatılaşır. Dünyanın ən müxtəlif ölkələrində hər kəs anlayırdı ki, bu bəla gec-tez onları da vura bilər. Təqvimdə İkinci Dünya müharibəsi idi.

Sabahın görkəmli şairi Balaş Azəroğlu gənc bir insandı, vur-tut 20-21 yaşı vardı. Həyat onunçün sözün hər mənasında yeni başlanırdı. Birincisi, gənc idi, cavan bir insan üçün, əlbəttə ki, həyat yolu yenicə başlanır. Amma digər tərəfdən, o, bir Vətəndən digər Vətənə gəlmişdi. Orada, Bakıda ayrı bir həyat yaşayırdı və orada qalmış olsaydı, onu büsbütün fərqli bir gələcək gözləyərdi. İndi isə gəlib düşmüşdü İrana. Ərdəbildəki həyatın vəd etdiyi isə tamam başqa gələcək idi. İlk şeirlərini yazırdı, artıq tanıyanlar onu "ərdəbilli şair" adlandırırdı. Ancaq Balaş kimi cavanlığında şeir yazan o qədər insan olmuşdu ki, onların hamısı sonralar şair kimi şöhrətlənmədi. Ola bilər ki, bu tale elə Balaşı da müşayiət edərdi. Ancaq həyat özü onu mübarizələrə hazırlayırdı.

Guya İran müharibədən aralı kimi idi, onun Almaniya ilə bağlaşması vardı. Ancaq bütün dünyanı silkələyən elə bir savaş gedirdi ki, heç bir müqavilə, heç bir anlaşmaya arxayınlaşaraq düşüncəsinin qibləsinə çevrilir.

Ancaq ömrün bu çağında onu əhatəsində, təsirində daha çox saxlayan dövrün inqilab havası idi. İti sürətlərlə irəliləyən daxildən fırtınalı vaxt onu qəzet redaktoru edir. Hələlik ayda iki dəfə buraxacaqları o qəzetin adını da elə zamanın ovqatına uyğun olaraq "Yumruq" qoymuşdular - birliyin, mütəşəkkilliyin, bütün haqsızlıqlara qarşı etirazın rəmzi.

Ömür illərinin üstünə yeni illər, onillər qalanacaq, ömrü uzunu Balaş Azəroğlu çox sınaqlardan keçəcək. Bu, labüddür - tərkinə alıb apardığı insanı həyat dəyişir, adamın cavanlıqda hadisələrə, insanlara münasibəti bir başqa olur, vaxt ötəndən sonra, ahıllıqda ayrı cür. Balaş Azəroğlu da istisna deyildi. İllah da ki, onunku sayaq başdan-başa burulğanlı dövrlərə düşən ömür ola! 20-25 yaşlarında inqilab alovu ilə daşan Balaş Azəroğlu, əlbəttə, həmişə o təhər qala bilməzdi. İnsan vücudunun tabı yalnız ömrün kiçik bir kəsiyində o hərarətdə olmağa çatır. İnsan daim elə qalsa, odu elə özünü alışdırar. Dəyişən onillər və həyat şərtləri Balaş Azəroğlunu aram, təmkinli, daha sakit, daha həlim etmişdi. Ancaq Azəroğlu şair idi axı. Qələmi götürüb kağızla təkbətək qalanda yaşı da, pəncərədən dışarıdakı həyat axarı da, gündəlik qayğılar da bir anda sanki yox olurdu, dönürdü gəncliyinə, çevrilirdi elə həminki Balaşa və o yumruq ovqatı, o dönməzlik, o mətinlik ömrün son saatınadək Balaş Azəroğluyla birgə qaldı.

...1946-cı ilin 21 azərindən, Cənubi Azərbaycanda Milli Hökumətin süqutundan sonra bir çoxları kimi, Balaş Azəroğlu da bu taya pənah gətirməli olmuşdu. Buralarda yerləşəndən, yüngülvari rahatlıq əldə edəndən az sonra, elə

# ÖMRÜN AĞIRLIĞI ÇÖKMÜŞ VƏRƏQLƏR

1941-ci il idi. Balaş Azəroğlunun vur-tut 20 yaşı vardı. Ancaq o, mübarizələr meydanına atılırdı. Böyük söz aləminə döyüşkən sətirləri ilə gəlirdi. Bu danışan da unudulmaz Balaş Azəroğludur: "Rza şah qaçandan sonra Tehranda da həbsxanalar açıldı. İranın həbsxanalardakı məşhur inqilabçıları azadlığa çıxdılar. Azadlığa çıxandan bir müddətdən sonra da, təqribən beş-altı ay keçincə bunlar İran Xalq Partiyasını təşkil etdilər. İran Xalq Partiyasının nümayəndələri Ərdəbilə də gəldi çıxdı, Ərdəbildə təşkilat yaratdılar. Bu təşkilata birinci yazılan da biz mühacirlər olduq. Mən də gedib təşkilata üzv oldum. Şəhərdə nümayişlər keçirilir, mitinqlər olurdu. Bizim ərdəbilli ziyalılar çıxıb danışırdılar. Kənddən gələn fəhlələr bunları başa düşmürdü. Çünki elə farsca danışan kimiydilər. On kəlmə deyəndə biri Azərbaycan sözü olurdu, doqquzu farsca. Ona görə mitinqlərdə biz mühacirlər çıxış etməyə başladıq. Mən də çıxış edirdim, həm nitqlərim olurdu, həm də təzə yazdığım şeirləri oxuyurdum. Özü də şeirlər nə idi - hamısı şahın əleyhinə. Camaat bizi istəyirdi. Kəndlərdəki mitinqlərə "mühacirlər gəlsin" deyirdilər. Çünki bizim danışığımızı rahatca başa düşürdülər, bizim çıxışlarımızda yerli ziyalıların korlanmış dilindəki qəliz ərəb-fars sözləri, izafət birləşmələri yox idi.

1943-cü ildə isə Təbrizdə olan yoldaşlarımız fikirləşmişdilər başda Biriya olmaqla ki, bir ziddi-faşist təşkilatı yaratsınlar. Həmin faşistlərin əleyhinə olan təşkilata Biriya sədr seçildi. Bu təşkilatın çoxlu üzvləri var idi, əksəri də mühacirlər idi. Bu təşkilatın bir şöbəsini də Ərdəbildə yaratdılar. Ərdəbildəki ziddi-faşist təşkilatına məni sədr seçdilər. Biz hər ay bir-iki səhifədən ibarət xüsusi vərəqələr buraxırdıq. Burada faşistlərin əleyhinə şeirlər, məqalələr yazır, kəndliləri incidən ərbabların əməllərini faş edən mə-sakit oturmaq olmazdı, heç bir ölkə bu fövqəladə hadisənin dalğasından kənarda qala bilməzdi.

İrandakı şah rejimindən, bu düyünlü və çürük siyasətin bir çox əyintilərindən narazı olan qüvvələr hədsiz idi. Ona görə də ölkə boyu mütərəqqi fikirli insanlar nicat yolu axtarışlarında ayrı-ayrı cəmiyyətlərdə, təşkilatlarda birləşməyə çalışırdı.

XIX yüzilliyin ikinci yarısından etibarən, xüsusən də XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda sıra-sıra qəzetlər, dərgilər nəşr edilib. Mətbuatımızın bütöv tarixi haçansa, yəqin ki, yazılacaq. Tariximizdə qalası bir çox nəşrlər var ki, çağdaş insanlar onlardan xəbərsizdir. Hansısa 1 ay nəşr olunub, hansısa 3 ay, 5 ay, 1 il, 2 il. Ancaq bu qısa müddət ərzində də onlar hamısı tarixdə həmişəlik qalacaq və insanların vaxtaşırı qayıdacağı imzasını atmağı bacarıb.

Azərbaycanın mətbuat tarixində şair Balaş Azəroğlunun imzası həm də bir mühərrir (qəzetçi) kimi qalmaqdadır.

1942-ci ildə onun 21 yaşı vardı, mətbuat qaçılmaz cazibəsi ilə Balaşı özünə doğru çəkməkdəydi və sabahın Azəroğlusuna döndərmək üçün təməllər tökürdü. Təbrizə ilk gəlişində "Vətən yolu" qəzetinin redaksiyasında Qılman Musayevlə - sabahın görkəmli yazıçıları Qılman İlkinlə, Seyfəddin Abbasovla - sonraların Seyfəddin Dağlısıyla, Ənvər Məmmədxanlıyla, Əvəz Sadıqla tanış olmuşdu. Onların adı Balaşa hələ Bakı illərindən, mətbuat səhifələrindən tanış idi. Amma indi ilk dəfə onlarla əl tuturdu, qabaq-qənşər dayanmışdı, kəlmə kəsirdi.

Bu xalis yazıçılarla təmaslardan sonra şeirin Balaşçün sadəcə həvəs olmaq əyyamları bitir, söz bütün varlığını doldurur və anlayır ki, bundan belə ədəbiyyat onun həyatının mənasına, 1947-ci ildəcə qət etmişdi ki, Güney günlərinin xatirələrini yubatmadan qələmə alsın. Nə qədər ki xatirələr hələ isti idi, təfərrüatların çoxu əyaniliyi ilə göz yaddaşında, hafizəsinin üst qatında idi, istəyirdi ki, tezbazar təhrif etmədən onların hamısını yalnız öz ömürnaməsi kimi yox, həm də tarix sənədi kimi yazılaşdırsın.

Ancaq düşündüyü kimi olmamışdı, xatirələrini yazmaq elə o günləri yaşamaq qədər müşkülə çevrilmişdi. 1947-ci ildə başlayandan həftələr, aylar sonra, elə həmin ilin içindəcə tamamlamağı düşündüyü xatiratının son nöqtəsini qoyanda artıq 1996-cı il idi, Balaş Azəroğlu 75 yaşını haqlamışdı və yenə hər gün xəyalən Təbrizdə, Ərdəbildə, coşqun gəncliyində idi:

Bir karvan istəyirəm
Səhradan keçə, düzdən keçə,
Yolu Təbrizdən keçə.
Bir sərvan istəyirəm
Zəngli qara nərilə
Qatıb mənzili mənzilə
Alıb apara məni
Şah babam Xətainin
Vətəni Ərdəbilə.

Elə zənn edərsiniz ki, yəqin, xatirələr həcmcə həddən artıq çoxmuş ki, yazıya alınması bu qədər uzun vaxt aparıb. Ancaq heç 200 səhifə ola-olmaya.

Sanarsan ki, vərəq elə vərəqdir, əlində tutanda biri ilə obirisinin çəkisindəki fərqi hiss etməzsən. Ancaq Azəroğlunun elə öz xasiyyəti kimi sahmanlı, dinclik yağan aydın xətti ilə xatirələrini yazdığı vərəqlərin hər biri pəhləvanlar qaldıran çəki daşlarından da ağır idi. Vərəqlərə çökən o ağırlığı Balaş Azəroğlu bütöv bir ömür boyu daşıdı.

*12 noyabr 2025*